

**Yeni Azərbaycan Partiyası Siyasi Şurasının noyabrın 28-də keçirilən iclasında Azərbaycan parlamentində islahatların aparılmasının vacibliyi qeyd edildi və Milli Məclisin buraxılması barədə təşəbbüs irəli sürüldü. Bildirildi ki, hazırda Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar sistemli, geniş, əhatəli xarakter daşıyır. Məhz bu baxımdan islahatlar qanunverici hakimiyyət sferasından da kənarda qalmamalıdır. YAP üzvləri Siyasi Şuranın iclasında bu məsələni müzakirə edərək, bir daha islahatlar konsepsiyasına öz dəstəklərini nümayiş etdirdilər. Siyasi Şuranın bütün üzvləri bu məsələdə Azərbaycan parlamentinin də yeniləşməsinin, müasirləşməsinin zəruri olduğu barədə yekdil qərara gəldilər. Milli Məclisin deputatı, siyasi elmlər doktoru, professor Elman Nəsirovla söhbətimiz bu barədə oldu. Yeni Azərbaycan Partiyası Siyasi Şurasının Milli Məclisin buraxılması barədə qərarına aydınlıq gətirən E.Nəsirov dedi:**

# “Yeniləşən Azərbaycana yeni parlament lazımdır”

– Məlum olduğu kimi, Yeni Azərbaycan Partiyasının Siyasi Şurası partiyanın parlament təmsilçilərinə müraciət edərək bildirdi ki, ölkədə həyata keçirilən islahatlar fonunda Milli Məclisin buraxılması məsələsini gündəmə gətirsinlər. Bu məsələ artıq parlamentin müzakirəsinə çıxarılacaq. Müzakirələrdən sonra qərar qəbul olunacaq və dövlət başçısına yeni seçkilərin keçirilməsi barədə müraciət olunacaq.

***– Elman müəllim, bu zərurət nədən yarandı?***

– Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında sistemli, ardıcıl islahatlar kursu həyata keçirilir. Respublikamızda elə bir sfera yoxdur ki, islahatlar onu əhatə etməsin. Sosial, iqtisadi, məhkəmə-hüquq sistemində və digər sahələrdə islahatlara start verilib. Xalq bu islahatların bəhrəsini artıq gündəlik həyatında hiss edir. Göründüyü kimi, hakimiyyətin hər iki qanadında islahatlar aparılıb. Ölkəmizin sürətli inkişafının təmin olunması üçün islahatların bütün sahələr üzrə aparılması vacibdir. Təbii ki, qanunverici orqan olan Milli Məclisdə də yeniləşmə olmalıdır. Bu baxımdan, Milli Məclisin buraxılması barədə Yeni Azərbaycan Partiyası Siyasi Şurası tərəfindən təşəbbüsün irəli sürülməsi məntiqidir və ölkəmizdə aparılan islahatlar kursunun mahiyyətindən, onun fəlsəfəsindən doğan bir zərurətdir.

İslahatlar barəsində də cənab Prezidentin çox maraqlı fikirləri var. Deyir ki, islahat, ilk növbədə, təkamüldür, yeni dövrə uyğunlaşma və tərəqqidir. Eyni məntiqlə Milli Məclis də təkmilləşmə kursuna, yeni şəraitə, tərəqqiyə uyğun olaraq bu addımları atır. Hesab edirəm ki, bununla da islahatlar artıq cəmiyyətimizin bütün sferalarını, o cümlədən parlamenti də əhatə etməklə tam məzmun kəsb edir.

***– Növbədənkənar parlament seçkilərinin keçirilməsi təşəbbüsü ilə bağlı radikal müxalifət nümayəndələri müxtəlif fikirlər səsləndirirlər. Bu məsələyə sizin münasibətiniz necədir?***

– Siyasi partiyaların qarşıya qoyduğu əsas məsələlərdən biri də ölkədə keçirilən hər hansı bir seçkiyə hazırlaşmaq , seçkilərdə iştirak etmək və qələbə qazanmaqdır. Seçkini boykot etmək, növbədənkənar seçkilər haqqında mənfi fikir söyləmək zəiflik, acizlik əlamətidir. Bu fikri səsləndirənlər yaxşı bilirlər ki, onlara dəstək verən yoxdur və hansı seçkiyə qatılsalar da, seçicilərin etimadını qazana bilməyəcəklər. Ona görə də indidən su bulandırmaq, çaşqınlıq yaratmaq istəyirlər. Növbədənkənar seçkilərin keçirilməsi nadir hadisə deyil və təkcə bizim ölkəmizdə müşahidə olunmur. Dünya praktikasına nəzər salsaq, belə halların tez-tez baş verdiyinin şahidi olarıq. Məsələn, bir faktı diqqətinizə çatdırım.

Bu il dekabrın 12-də Böyük Britaniyada növbədənkənar parlament seçkiləri keçiriləcək. Daha bir fakt deyə bilərəm. 2015-ci ildən 2019-cu ilə qədər İspaniyada 4 erkən parlament seçkiləri keçirilib. Hətta 2019-cu ildə həmin ölkədə 2 belə növbədənkənar seçki keçirilib. Həmçinin, İsraildə də növbədənkənar parlament seçkiləri keçirilib. Görürsünüzmü, dünya praktikasında belə hallar baş verir. Ona görə də növbədənkənar parlament seçkilərinin keçirilməsini qeyri-adi hadisə kimi qələmə vermək və ya bu hadisədən siyasi məqsədlər üçün istifadə etmək siyasətdən bixəbər adamların, araqarışdıranların işidir.

Əslində, Yeni Azərbaycan Partiyasının Siyasi Şurası növbədənkənar parlament seçkilərinin keçirilməsi təşəbbüsü ilə çıxış edərək yeni siyasi mədəniyyət nümayiş etdirdi və müstəqillik tariximizə yeni səhifə yazdı. Yəqin ki, hər kəsin yadındadır. YAP yeni yarananda o zamankı antimilli hakimiyyətə qarşı müxalifətdə olub. Qısa bir zamanda ətrafına minlərlə üzv və tərəfdar toplayan bu partiya xalqın dəstəyi ilə hakimiyyətə gəldi. Hakimiyyətə gəldiyi vaxtdan bu günə qədər ölkədə keçirilən bütün seçkilərdə rəqiblərini özündən xeyli arxada qoyub. Bu gün Azərbaycanın dünyada nüfuz sahibi olmasında YAP-ın xidmətləri danılmazdır. İndi də növbəti siyasi mədəniyyət ortaya qoyaraq növbədənkənar parlament seçkilərinin keçirilməsi barədə təşəbbüslə çıxış etdi.

Yeni Azərbaycan Partiyasının parlamentdə təmsil olunan deputatları könüllü şəkildə öz səlahiyyətlərindən imtina edir və yeni seçkilərin keçirilməsi istəyini ortaya qoyurlar. Hesab edirəm ki, yeniləşən Azərbaycana yeni parlament nəsib olacaq.

***Söhbəti qələmə aldı:***
***Əliqismət BƏDƏLOV,***
***“Xalq qəzeti”***